Türk Dünyası Araştırmaları | Mart - Nisan 2023
TDA | Cilt: 133 Sayı: 263 Sayfa: 257-270

# Elm ve İrfan İşıqlı Şirvanlı İsmayil Əfəndi Milli Qəhrəman Şeyx Şamilin İdeya Rəhbəri, Osmanlı Sədr-əzəminin Atası...

***Büyük Sufi ve Tasavvuf Alimi Şirvanlı İsmail Efendi Milli kahraman Şeyh Şamil'in fikir babası, Osmanlı Sadrazamı'nın Babası...***

***Who Was Shirvani İsmail Efendi, The Scientist And Enlightener*** **Idea Leader Of The National Hero Sheikh Shamil, Father Of The Ottoman Sedr-Azami**

**Namiq ƏHMƏDOV***

* Dr. Bakü, Azerbaycan

**Orcid Id:** 0000-0003-1970-182X

**Sorumlu Yazar / Corresponding Author:**
Namiq Əhmədov
Bakı Dövlət Universiteti, Beynəlxalq Jurnalistika və İnformasiya Siyasəti Kafedrası

**E-posta / E-mail:**
tuqay59@mail.ru

**Geliş Tarihi / Recived Date:**
11 Mart 2023

**Kabul Tarihi / Accepted Date:**
5 Haziran 2023

**Araştırma Makalesi / Research Article**

**Atıf / Citation:**
Namiq Əhmədov, "Elm ve İrfan İşıqlı Şirvanlı İsmayil Əfəndi Milli Qəhrəman Şeyx Şamilin İdeya Rəhbəri, Osmanlı Sədr-əzəminin Atası...", *Türk Dünyası Araştırmaları,* Cilt 133, Sayı 263, İstanbul 2023, s. 257-270

**doi:** 10.55773/tda.1263591

Bu makale Creative Commons BY-NC-SA 2.0 tarafından lisanslanmıştır. / This article is licensed under a Creative Commons BY-NC-SA 2.0.

***Xülasə***

*Məqalədə Azərbaycan xalqının tarixində mövcud olmuş və bu gün də diqqət mərkəzində olan sufizmdən, eyni zamanda ondan bəhrələnən şəxsiyyətlərdən, onların fəaliyyətindən, hələ də geniş şəkildə araşdırılmaya ehtiyacı olan tarixi simalardan biri olan İsmayıl Şirvanidən söhbət açılır. İsmayıl Şirvani XIX əsrdə həyat və fəaliyyəti ictimai-siyasi hadisələrdən ayrılmaz olan görkəmli şəxsiyyətlərdən biri olmuşdur. Onun həyat və yaradıcılığının öyrənilməsi Azərbaycanın o dövrdəki ictimai-siyasi vəziyyətinin, həmçinin XIX əsr dini-fəlsəfi fikrin də tutduğu yeri və göstərdiyi təsirin öyrənilməsi baxımından* mühüm *əhəmiyyət kəsb edir.*

*Böyük sufi nümayəndələrindən olan İsmayıl Şirvaninin həyatı, irsi, şəxsiyyəti, yaradıcılığının öyrənilməsi uzun müddət mümkün olmamışdır. Sovet dövrünün qadağaları nəticəsində bu görkəmli şəxsin fəaliyyəti tədqiqatlardan kənarda qalmışdır. Məqalədə onun həyatı, yaşadığı dövrdə hansı hadisələrlə üzləşdiyi və hal-hazırda onunla bağlı, məhz onun özünə məxsus olan əşyaların qorunub saxlanılması haqqında, eləcə də ailəsi haqqında verilən məlumatlar əksini tapmışdır.*

***Açar sözlər:*** *İsmayıl Şirvani, Amasiya, İslam dini, təsavvuf, nəqşibəndilik.*

**Öz**

*Bu makalede Azerbaycan Türklerinin geçmişte ve bugün tasavvufa olan ilgisiyle birlikte tasavvuf yolunu benimsemiş tarihî şahsiyetlerin hayatı ve mücadeleleri üzerinde durulmuştur. 19. yüzyılın tanınmış mutasavvıflarından biri olan İsmail Şirvani, yaşadığı çağın sosyo-politik olaylarına kayıtsız kalmayarak sufi âlim sıfatıyla olaylara yön vermiştir. İsmail Şirvani'nin yaşam ve mücadelesinin araştırılması, Azerbaycan'ın o dönemdeki siyasal ve sosyolojik durumunun, 19. yüzyıldaki dinî-felsefi anlayışının ve bu düşüncenin toplum üzerinde yaptığı etkilerin anlaşılması yönünden son derece önemlidir.*

*Büyük mutasavvıf İsmail Şirvani'nin hayatı ve mücadeleleri uzun süre araştırılamamıştır. 19. yüzyılın ilk çeyreğinden başlayarak gelişen tarihî ve siyasi olaylar, Azerbaycan'ın ikiye bölünmesi, Kuzey Azerbaycan'ın Rus tahakkümü altına düşmesi, çarlığın devrilmesinden sonra başlayan Bolşevik işgali sebebiyle böylesine büyük şahsiyetlerin mücadelesi ve düşüncelerinin yeni nesillerde işgalcilere karşı önlenemez reaksiyonların oluşmasını tetikleyeceği bilindiğinden Ruslar tarafından yasaklandığından konu hep geri planda kalmıştır. Makalede İsmail Efendi'nin Azerbaycan'dan Türkiye'de Amasya vilayetine uzanan yaşamı, ailesi, mücadeleleri ve gayesi ile ilgili konular üzerinde durulmuştur.*

***Anahtar Kelimeler:*** *İsmail Şirvani, Amasya, İslam Dini, Tasavvuf, Nakşibendilik.*

***Abstract***

*This article deals with the Sufism, which has existed in the history Azerbaijani people and is in the focus of attention also in our time, as well as the personalities who have benefited from it, their activities, and the historical figures that still need to be studied extensively. Ismail Shirvani was one of the prominent figures of the 19th century, whose life and activities were inseparably entwined with the social and political events.*

*Studying the life and activities of Ismail Shirvani is of great importance in terms of studying the social and political situation in Azerbaijan of that time, as well as the place and influence of the religious-philosophical thinking of the 19th century. It has not been possible for a long time to study the life, heritage, personality and works of Ismail Shirvani, who was one of the greatest representatives of the Sufism. As a result of the bans imposed during the Soviet era, the activity of this prominent figure was left unstudied. The article provides information about the place where he was born, his life, the events he has witnessed during his lifetime, the artefacts and his personal belongings preserved to the present day, as well as the information about his family.*

***Keywords:*** *Ismail Shirvani, Amasia, Islam religion, Tasawwuf, Naqshbandi.*

## 1. Giriş

Sovet rejiminin "türk" adına qoyduğu qadağaları 1991-ci ildə qazandığımız ikinci müstəqilliyimiz aradan götürdü. XIX əsrdə Azərbaycandan Türkiyənin ən müxtəlif bölgələrinə köç edib məskunlaşan azərbaycanlıların tale yolu haqqında bilgilər əldə etmək də müstəqillikdən sonra reallaşdı. Qarsa, Ərzuruma, İğdıra, Sivasa, Amasiyaya, hətta bir az ətraflı axtaranda Aralıq və Egey dənizi sahillərinəcən gedən bu insanların tale yolları hər birimizi düşündürən "əfsanələr"dən oldu. Millət vəkili Qənirə Paşayeva'nın vaxtı ilə Amasiya haqqında yazdıqları da bu anlamı bir daha təsdiq edir: "Mənim üçün ən unudulmaz anlardan biri Amasiyada yaşayan bir çox Azərbaycan kökənli ailələrlə olan görüşlərim oldu. Amasiya müxtəlif dövrlərdə, xüsusilə, XIX yüzildə çar Rusiyası tərəfindən Azərbaycan torpaqları işğal edildikdən sonra azərbaycanlıların Anadoluya ən çox köç etdikləri şəhərlərdən biridir və burada çoxlu sayda Azərbaycan kökənli ailələr yaşayır."[1] Bu sırada Amasiyaya gələn və bütün türk dünyasının məşhurları sırasında önəmli yer tutan bir böyük şəxsiyyət də var: Şirvanlı İsmayıl Əfəndi. Onun yolunu davam etdirən bir çox azərbaycanlı mürid də Amasiyaya gələrək, buranı özlərinin "Vətəni" elan etmişlər.

## 2. Uşaqlıq İlləri və Təhsili

Bəs vaxtilə Amasiyaya köç edən və bütün türk dünyasının məşhurları sı-

[1] Paşayeva, Q. Bəzmi səmadan keçməzəm...Qarabağdan Amasiyaya Könül Körpüsü. *I Beynəlxalq Həmzə Nigari simpoziumunun materialları.* Amasiya:2012,31 May-1 İyun, s.16.

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 257-270

rasında önəmli bir yer tutan İsmayıl Əfəndi kim idi? Onun irsini araşdıran tədqiqatçılar İsmayıl Ənvər oğlu Şirvaninin 1782-ci ildə keçmiş Şirvan xanlığının Bölükət mahalına daxil olan Kürdəmir kəndində anadan olduğunu bildirirlər. İndi bu kənd Azərbaycanda rayon mərkəzidir. Bu məşhur alimin bütünlükdə ad və soyadı Mövlanə İsmayıl Siracəddin əl-Kürdəmiri əş-Şirvanidir. Ona "Siracəddin", yəni "dinin çırağı" ləqəbini Bağdadda İsmayılın müəllimi olmuş böyük islam alimi Mövlana Xalid vermişdi. Soyadı kimi işlədilən "əl-Kürdəmiri əş-Şirvani" isə doğulduğu, yaşadığı kəndin və bölgənin adındandır.[2]

İlk təhsilini--oxumağı, yazmağı atası Şeyx Ənvər Şirvanidən aldığı bildirilir. Sonra Şamaxıda Məhəmməd Nuri əfəndinin işlədiyi mədrəsədə oxumağa göndərilib, burada 1800-ci ilə kimi dərs alıb. Mədrəsəni bitirdikdən sonra Ərzincana gedərək dövrünün məşhur din alimlərindən olan Əbdürrəhman əfəndi Övliyazadənin yanında yeni biliklərə yiyələnmiş, islam elmini daha dərindən mənimsəməyə çalışmışdır. Övliyazadə gənc İsmayılın qabiliyyət və bacarığını yüksək qiymətləndirib və ona islam elmləri sahəsində yüksək bilik sahibi olduğunu təsdiqləyən yazılı şəhadətnamə vermişdir. Dini rütbəyə layiq bilindikdən Tokat şəhərinə gedib, orada bir neçə il qalaraq biliklərini daha da təkmilləşdirmişdir. Ordan da Bağdada qədərək Süleymaniyyədə Mərvari Yəhyə Əfəndidən və Molla Məhəmməd ibn Ədəmdən riyaziyyat və hədis elmlərini öyrənmişdir. 1805-ci ildə Burdura (Anadolu) gəlir, burada da tanınmış alimlərin yanında fiqh sahəsində biliklərini artırır və sonra Kürdəmirə qayıdaraq 7 il doğma yurdunda müəllimlik etmişdir.[3]

### 3. Nəqşibəndlik Təriqətinin Mərkəzi Kürdəmir

Onun Kürdəmirə dönüşü Qafqazın Rusiya tərəfindən işğalı illərinə düşür. Gənc din alimi işğalçıların İslam dininə mənfi münasibətinin, işğalçı ordunun qəddarlığının şahidi olur. Onlara qarşı təkbaşına mübarizə aparmağın mümkünsüzlüyünü görərək gəncləri və yeniyetmələri ətrafına toplayaraq İslam dininin əsaslarını öyrədir, elm və bilik verməklə yanaşı, mübariz bir ruhda tərbiyə edir. Şeyx İsmayılın nəqşibəndi təriqətinin əsasında işləyib hazırladığı müridizm ideyaları, həm də hamının bərabər olması və kimsədən asılı olmamasını bildirən Qurani-Kərim ayələrinə əsaslanırdı: "Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir"[4], "Müşrikləri harada yaxalasanız öldürün və sizi çıxartdıqları yerdən siz də onları çıxardın! Fitnə qətldən daha pisdir. Onlar sizinlə Məscidulharamın yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın. Əgər sizinlə vuruşsalar, siz də onları öldürün. Kafirlərin cəzası belədir."[5] "Əgər onlar günah işlərə son qoysalar, əlbəttə ki, Allah Bağışlayandır, Rəhmlidir!."[6]

[2] Xəlilli, F.,1854-1856-cı illərdə Şirvanda üsyana cəhd haqqında //*Tarix və onun problemləri.* 2003, N 4, s.121.

[3] Məhəmmədcəlil, M., Xəlilli,F. Mövlanə İsmayıl Siracəddin Şirvani, Həyatı, fəaliyyəti və ardıcılları. Bakı: 2003, Adiloğlu nəşriyyatı, s. 34.

[4] Əl-Bəqarə, http://zikr.az/node/951:190

[5] Əl-Bəqarə, http://zikr.az/node/951:191.

[6] Əl-Bəqarə, http://zikr.az/node/951.:192.

Dolanışığını təmin etmək və insanlara İslami yaşam tərzini əməli ilə göstərmək üçün alim ata-baba mülkündə tut ağacları əkib, barama qurdu bəsləyir. Bununla ətrafındakılara islam dinində din xadimlərinin xalqın sıradan bir nümayəndəsi olduğunu, hamı kimi əl əməyi ilə dolandığını göstərir. Yeddi il Şirvanda yaşadıqdan sonra 1913-cü ildə Həcc ziyarətinə yollanır. O dövrdə Osmanlı dövlətinə daxil olan Məkkə, Mədinə, Qüds şəhərlərindəki müqəddəs yerləri ziyarət etdikdən sonra, yaxın və Orta Şərq ölkələrində məşhur olan Hindistanlı Şeyx Abdulla Dəhləvinin şagirdi azərbaycanlı Şeyx Mövlana Xalid Bağdadidən təhsil almışdır. 1813-17-ci illərdə Mövlanə Xalidə müridlik edən İsmayıl Şirvaniyə müəllimi icazənamə (diplom) verilir.[7] Bu cür icazənamələr yalançı şeyxlərin meydana çıxmasının qarşısını alan və sahibinin mürşidliyə layiq olduğunu sübut edən sənədlər idi. Eyni zamanda müəllimi Mövlanə Xalid ona Siracəddin (dinin çırağı) təxəllüsünü verir və Azərbaycana göndərir. Beləliklə, o, 1817-ci ildə yenidən Kürdəmirə qayıdır. Nəqşibəndlik təriqətinin mərkəzi Kürdəmir olur və mərkəzə müsəlman xalqlarının ictimai-siyasi həyatında böyük xidmətləri olmuş Siracəddin İsmayıl Şirvani rəhbərlik edirdi.

İsmayıl Şirvani Kürdəmirdə yaşadığı bu 9 ildə sufizmin Nəqşibəndlilik təriqətinin ideyalarını öyrətməklə, müridizmin başlıca ideyalarını hazırlayır, bu təlimi Azərbaycan və Şimali Qafqazda yaymaqla məşğul olur. "XIX əsrdə Kürdəmirli Mövlanə İsmayıl Şirvaninin Bağdaddan Kürdəmirə qayıtması ilə Azərbaycanın təsəvvüf tarixində önəmli bir mərhələ başlamışdır. Belə ki, 1817-ci ildə ustadı Mövlanə Xalidin xeyir-duası ilə Kürdəmirə gələn İsmayıl Şirvani nəqşibəndiliyi Qafqazda yayaraq, milli mübarizə ideologiyasının - müridizmin formalaşmasında əsas rol oynamışdır."[8]

### 4. Təqiblər, Təzyiqlər və İcra Olunmayan Həbs Qərarı

Qısa zamanda İsmayıl Şirvaninin şöhrəti Qafqaza yayılır. İnsanlar onun yanına gələrək elm və irfan dərsi alırlar. İsmayıl Şirvaninin fikirləri onun müridləri Xas Məhəmməd Şirvani, Molla Məhəmməd Yaraqlı, Hacı Əhməd Qiyasi Şirvani, Hacı Yahya bəy, Hacı Mahmud Baba Kürdəmirli, Hacı Əhməd Əfəndi Küllüllü, Cəmaləddin Qazi Qumuği, Mir Həmzə Seyid Nigari və başqaları tərəfindən surətlə yayılır. Nəqşibəndiliyin Qafqazda sürətlə yayılması, bu təriqətin tərəfdarı olan Qazi Məhəmmədin, Həmzə bəyin apardığı mübarizə Rus hökümətini bərk qorxuya salır.

Tam 35 il Qafqazı rus işğalçılara zindan edən zəmanənin böyük qəhrəmanı Şeyx Şamil də nəqşibəndlilik ideyalarının tərəfdarlarından olmuşdur[9]. Molla Məhəmməd Yaraqlının şagirdlərindən biri olan şirvanlı Xas Məhəmməd Mövlanə İsmayıl Şirvanidən nəqşibəndilik təriqətinin əsaslarını öyrənmiş... Da-

---

[7] Seyid, R. Osmanlı baş vəzirinin atası olmuş kürdəmirli şeyx. *Kulis.az.2013, 8 noyabr.* https://kulis.az/xeber /tarix/xeber-6837.

[8] Bəşirov, A., Mövlana İsmayıl Şirvani Qafqaz müridizmi ideologiyasının banisidir. Qarabağdan Amasiyaya Könül Körpüsü. *I Beynəlxalq Həmzə Nigari Simpoziumunun Materialları.* Amasiya: 2012, 31 May- 1 İyun, s. 33.

[9] Xəlilli,F.,1854-1856-cı illərdə Şirvanda üsyana cəhd haqqında (I məqalə) //*Tarix və onun problemləri*, 2003,N 3, s.123.

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 257-270

ğıstanda bu təlimin yayılmasına həyatını həsr etmişdir. O, əvvəlcə Kürin xanlığında təriqəti yaymağa başlamış, ətrafına hər tərəfdən müridlər toplamışdır. Cəmaləddin əl-Qumuğiyə xilafətnamə vermiş, İmam Qazı Məhəmmədə və İmam Şamilə təriqətin yollarını öyrətmişdir.[10] İmam Şamilin şəriət və təsəvvüf haqqındakı görüşləri A.Runovskinin gündəliklərində daha qabarıq verilmişdir. Həmin gündəlik 1904-cü ildə QAKA-nın (Qafqaz Arxeoqrafiya Komitəsinin Aktları) XII cildində ayrıca nəşr edilmişdir.

İmam Şamil 1859-cu ildə fəxri şərtlərlə təslim olduqdan sonra kapitan Runovskiyə verdiyi izahatında bildirir ki, Qafqazda mili azadlıq hərəkatı başlayana qədər nəqşibəndilik, müridizm Dağıstanda mövcud olmamışdır[11]. Bəzi tədqiqatçılar sufizmin Nəqşibəndlik təriqətinin Qafqaz regionunda çoxdan yayılması ideyasını müdafiə edir və uzun bir durğunluq dövrü keçdikdən sonra yeni yaranmış şəraitdə bir daha alovlanmağa başlandığını yazırlar[12]. Hətta Azərbaycanlı mütəfəkkir M.Kazımbəy Şeyx Şamil və müridizm haqqında tədqiqatlarında sufizmin Dağıstanda Ərəblər oranı istila edən zamandan yayılmağa başladığını yazır. Buradan görünür ki, "A.Kazımbəy sufizmin Dağıstanda yayılması zamanını qeyd edərkən heç də nəqşibəndlilik təriqətinin orada yayılmasını nəzərdə tutmurdu."[13] Çünki Nəqşibəndlik təriqəti ilk dəfə Buxaralı türkü Bahaəddin Nəqşibənd (1318-1389) tərəfindən XIV əsirdə tam sistem şəklinə salınmışdır.

Amma tədqiqatçıların "yeni yaranmış şərait" deyəndə Car Rusiyasının müstəmləkəçilik siyasətinə qarşı mübarizənin vurğulandığını nəzərdə tutmalarını da inkar etmək mümkün deyil. Çünki bu dövrdə sufilik xalq hərəkatının ideologiyasına çevrilmişdi. Məşhur iranşünas İ. P. Petruşevski məhz bu amili nəzərdə tutaraq yazırdı: "Mistik sufilik ideyaları arxa plana keçmiş və sufilikdə ictimai təbliğat ondan önə keçmişdir."[14] Təbii ki, bir rus tədqiqatçının açıq yazmadığı həqiqət "təriqətin müstəmləkəyə qarşı hərəkatın ideologiyasına çevrilməsi və ilk növbədə Qafqazda çarizmin amansızlıqla müşayiət olunan müstəmləkə təcavüzü" ilə bağlılığıdır.

Dağıstanda müridiliyin imamları Qazi Məhəmməd, Həmzət bəy və Şamilin dövründə müridizm daha da yayıldı. 1826-1827-ci illərdə Car-Balakəndə baş vermiş hadisələrdə Rusiyaya qarşı çıxışlarda Həmzət bəy, Məhmət xan, görkəmli təriqətçi Hacı Kafi Mollanın silahdaşı Hacı Şəfi də iştirak etmişdir. Həmzət bəy öldürüldükdən sonra 1834-cü ildə onun ideyalarını Şeyx Şamil davam etdirmişdir.[15]

---

[10] Fadeyev A. Rusiya və Qafqaz XIX əsrin birinci qərinəsində-Moskva, 1960. (rus dilində) s. 27

[11] Pokrovskiy M.V. O xaraktere dvijeniya qorçev Zapadnoqo Kavkaza v. 40-60-x qodax. XIX veka-Vopros1 istorii. 1957, № 2, s. 58.

[12] Kazım bəy M. Müridizm və Şamil. Maxaçqala, 1990 (rus dilində), s. 65; Kazimbek M. Möridizm i Şamil, Russkoe slovo, KN. XII. SPB.1859, s.73;. Runovski A. Şamil haqqında xatirələr-Moskva., 1989. (rus dilində),s.123; Zelkina A. Qafqaz azadlıq müharibəsində Nəqşibəndiyyənin rolu haqqında. // BEKM. 13-14 oktyabr 1993-Maxaçqala, 1997 (rus dilində), s. 54.

[13] Bəşirov, A., Mövlana İsmayıl Şirvani Qafqaz müridizmi ideologiyasının banisidir. *I Beynəlxalq Həmzə Nigari simpoziumunun materialları.* Amasiya:2012,31May-1İyun, s.35.

[14] Петрушевский İ.P. Ислам в Иране VII-XV вв. Л.: Издательство Ленинградского университета, 1966, с.47

[15] İmamverdiyeva K. Azərbaycanda sufiliyin tarixindən (epiqrafik abidələr əsasında). T.e.f.d. Avtoreferat. Bakı. 2010, s.21.

Elmi mənbələr tərəddüdsüz onu da isbatlayır ki, Qarabağdan Həzrət Nigari, Mərkəzi Dağıstanın Kumux kəndindən Camaləddin (Şamilin qayınatası), Yaraq kəndindən molla Məhəmməd təriqətin ideoloqlarıları idilər. Hətta onlardan əvvəl də "Müsəlman Şərqində, o cümlədən Qafqazda alimlər, maarifçilər, mədəniyyət xadimləri, sərkərdələr, siyasi xadimlər sırasında nəqşibəndiyyə Şeyxləri olmuşdur. Lakin Azərbaycanda təsəvvüf sahəsində XVI əsrdən başlayaraq geriləmə başlamış və təsəvvüf sahəsində güclü alimlər və təmsilçilər tarix meydanına çıxa bilmədiyi üçün təsəvvüf biliklər az inkişaf etmişdir. Nəhayət, Azərbaycan təsəvvüf tarixində XIX əsrdə önəmli yer tutan şəxsiyyət meydana çıxdı. Belə bir şəxsiyyət müsəlman aləminin ictimai-siyasi həyatında olduqca böyük xidmətləri olmuş Mövlanə Şeyx İsmayıl Siracəddin Şirvani (1782/83- 1848) idi".[16]

Beləliklə "İsmayıl Şirvani Qafqaz müridizminin banisidir" deyənlərin fikir və mülahizələri tam həqiqətdir. İsmayıl Şirvani Kürdəmirdə yaşadığı müddətdə ardıcıl olaraq Nəqşibəndilik təlimini öyrənməklə, müridizmin başlıca ideyalarını işləyib hazırlamış, müridizmi Azərbaycanda və Şimali Qafqazda yaymaqla məşğul olmuşdur. Tədqiqatçı Əli Şamil isə qeyd edir ki, "Qafqazda Rusiya imperiyasının işğalçılıq siyasətinə qarşı yönəldilmiş müridilik hərəkatının rəhbərlərindən biri olan İsmail Əfəndi müridizm adlandırılan hərəkətə yalnız ideoloji güc, mənəvi dəstək verməyib. Şeyx Şamil hərəkatına döyüşçülər, döyüş atları, silah, hərbi sürsat, ərzaq və geyim göndərilməsini də təşkil edib"[17].

Çar hökuməti müridilik hərəkatını təhdid hesab etdiyindən mürid rəhbərlər hökumət tərəfindən təqib edilirdi. Hətta "İddia edirlər ki, Çar Rusiyasına qarşı düşmənçilik edən qüvvələr və bəzi xarici dövlətlər Nəqşibəndi ideyalarını başqa ölkələrdən süni şəkildə Qafqaza gətirərək, ruslara qarşı mübarizədə istifadə etmək məqsədilə Qafqazda yaymışlar"[18]. Amma haqqında bir az irəlidə danışdığımız bir sıra mənbələr də təsdiq edir ki, nəqşibəndilik təriqəti Qafqaza xarici ölkələrdən süni şəkildə gətirilməmişdir. O da məlumdur ki, İsmayıl Şirvani 1823-cü ildə əslən Şamaxıdan olan Xas Məmməd Şirvaniyə xilafətnamə verərək, təhsil aldığı Dağıstanın Kürün xanlığında təsəvvüfi bilikləri və müridizmin ideyalarını yaymağı məsləhət bildi. Deməli, bu da bir sübutdur ki, müridizm ideyaları başqa dövlətlər tərəfindən Qafqaza gətirilməyib: "Bu tarixi faktlara söykənməyən düşüncənin tərəfdarları Qafqazda istilaçı və işğalçı müharibədə iştirak edən, polis və yüksək rütbəli hərbiçilər, bəzi tarixçilər və şərqşünaslar idilər. Nəqşibəndilik bütün müsəlman aləminə silsilə ardıcıllığı ilə yayıldığı üçün Qafqaza kənardan süni yolla gətirilə bilməzdi. Səhv düşüncə tərəfdarları... billə-bilə öz istilaçı siyasətinə haqq qazandırmaq məqsədi güdürdülər".[19]

---

16 Bəşirov, A. Mövlana İsmayıl Siracəddin Şirvani Qafqaz müridizmi ideologiyasının banisidir. Qarabağdan Amasiyaya Könül Körpüsü. I Beynəlxalq HəmzəNigari simpoziumunun materialları. Amasiya, 2012, 31 May - 1 İyun. s.34

17 Şamil, Ə. Türk Dünyasının Məşhurları: İsmayıl Şirvani. https://ali-shamil.tr.gg /%26%23304%3Bsmay%26%23305%3Bl-%26%23350%3Birvani.htm

18 Xəlilli,F.,1854-1856-cı illərdə Şirvanda üsyana cəhd haqqında (I məqalə) //*Tarix və onun problemləri*, 2003,N 3, s.123.

19 Bəşirov, A. Mövlana İsmayıl Siracəddin Şirvani Qafqaz müridizmi ideologiyasının banisidir.

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 257-270

Qafqazın işğalında göstərdiyi qəddarlığı ilə seçilən və çar tərəfindən canişin təyin edilən A.R.Yermalov işğal etdiyi ərazilərdə baş qaldıran etirazlara və üsyanlara son qoymaq üçün xanların, bəylərin hüquqlarının məhdudlaşdırılması ilə yanaşı nüfuzlu alimlərə, din xadimlərinə qarşı təzyiqləri də gücləndirir. Canişin İsmayıl Şirvaninin fəaliyyətini məhdudlaşdırmaq, hətta həbs etmək haqqında Şirvan komendantı olan erməni əsilli Mədətova göstəriş də verir. "General Yermalovun ətrafındakılar İsmayıl Əfəndinin həbsinin Qafaqazda vəziyyəti daha da gərginləşdirəcəyini anlatdıqda o, əmrində dəyişikliklər edib. İsmayıl Əfəndini həbs etdirməsə də, onun müridlərindən Zərdablı Molla Əhmədi və Cəyirli Hacı Məhəmməd Nəbi Əfəndini həbs etdirərək Rusiyanin mərkəzi quberniyalarına sürgünə göndərir."[20] Bunlar bir növ İsmayıl əfəndiyə mesajlar olsa da, amma tədqiqatçıların yazdığı kimi, İsmayıl əfəndinin həhs olunmamasının başqa obyektiv səbəbləri də olmuşdur. "1817 ildə İ.Şirvani Şirvana qayıdanda xanlıq hələ ləğv edilmədiyindən rahat fəaliyyət göstərirdi. Elə ki, xanlıq ləğv olundu, nüfuzlu şəxs kimi ona qarşı təzyiqlər başlandı. İsmayıl Əfəndi sürgündən böyük nüfuz sahibi olmasına və Mustafa xanın həyat yoldaşı Fatma bəyimin knyaz Mədətovdan xüsusi xahişinə görə xilas olmuşdur. Fatma bəyim İ.Şirvaninin irşad fəaliyyətini ömrünün sonuna kimi himayə etmişdir. Lakin bu hadisədən az sonra Şirvan komendantı, İ.Şirvaniyə öz şamaxılı dostları vasitəsilə məsləhət görür ki, Rusiya sərhədlərini xoşluqla tərk etsin"[21]. Göründüyü kimi Şeyxin böyük nüfuz sahibi olmasına və Mustafa xanın həyat yoldaşının xahişini nəzərə alan Mədətov Şirvanini həbs etməmişdir. Amma bundan sonra İsmayıl Şirvani doğma vətənini ədəbi tərk edərək Osmanlı hüdudlarına, Axisxaya köçdü. Müridlərinin təkidi və yardımıyla Axıskaya gələn İsmayıl Əfəndi burada da çox qalmır. Ruslar 1828-ci ildə Axıskanı işğal etdikdə o, Türkiyənin Amasiya şəhərinə mühacirət etməli olur.[22]

İsmayıl Şirvani Amasiyada yalnız Nəqşibəndiliyi təbliğ etməklə kifayətlənmir, Qafqaz mücahidlərinə də hər vasitə ilə yardım etməyə çalışır. Rusiyanın xüsusi xidmət orqanları da onun fəaliyyətini daim nəzarətdə saxlayır, dəfərlərlə Osmanlı hökumətinə məktublar göndərərək İsmayıl Əfəndinin fəaliyyətini məhdudlaşdırmağı tələb edirlər. İsmayıl Şirvani təzyiqlərdən yayınmaq üçün 1832-ci ildə Sivasa gəlir və 9 il orada yaşayır. 1841-ci ildə Amasiyaya qayıdaraq ömrünün sonuna kimi fəaliyyətini burada davam etdirmişdir[23]. Burada da onun ətrafına çoxlu müridlər yığışır. O cümlədən Qafqaz və Anadoluda məşhur olan, şeirləri iki əsrə yaxındır sevilərək oxunub əzbər söylənilən təkkə-təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi, nəqşibəndi təriqətinin nüfuzlu şeyxi, kamil

Qarabağdan *Amasiyaya Könül Körpüsü. I Beynəlxalq Həmzə Nigari simpoziumunun materialları.* Amasiya, 2012, 31 May - 1 İyun, s. 33-38.

20 Məhəmmədcəlil M., Xəlilli F., *Mövlanə İsmayıl Siracəddin Şirvani. Həyatı, fəaliyyəti və ardıcılları.* Bakı: 2013, Adiloğlu nəşriyyatı.s.98.

21 Rıhtım, M., Xəlilli, F.,Güllü Mövlanə.*Miras jurnalı*,2012, iyun. s.14.

22 Seyid, R., Osmanlı baş vəzirinin atası olmuş kürdəmirli şeyx. *Kulis.az.2013,28 noyabr.* https://kulis.az/xeber /tarix/xeber-6837.

23 Məhəmmədcəlil, M., Xəlilli, F. *Mövlanə İsmayıl Siracəddin Şirvani. Həyatı, fəaliyyəti və ardıcılları.* Bakı: 2003, Adiloğlu nəşriyyatı, s. 23.

mürşidi "Kürdəmirdə şeyxin yanında mənəvi tərbiyəsinə başlayan Həmzə Nigari şeyxini təqib edərək ardından Anadoluya gəlmiş, Sivas və Amasiyada müxtəlif fasilələrlə 20 ildən çox şeyxinin yanında qalmışdır"[24]. Dövrünün böyük şəxsiyyətlərindən olan Zəngəzurlu Mir Həmzə Seyid Nigari İsmayıl Şirvaniyə müridlik etmiş, hətta oğluna da ustadı Mövlana İsmayıl Siracəddin Şirvaninin ismini qoymuşdu[25]. Yeri gəlmişkən qeyd edək ki, Nigarinin də türbəsinin yerləşdiyi Şirvanlı məscidi (camesi) kimi tanınan məscid hal-hazırda Amasyanın mərkəzində yerləşir. Yerli əhali arasında "Şirvanlı" adı ilə tanınan Azərbaycan türkləri indinin özündə də Türkiyənin  Amasya şəhərində və ətraf kəndlərdə yaşayırlar.

Mövlana İsmayıl Siracəddin Şirvani kimi məşhurlaşan böyük din alimi 1848-cı ildə vəba xəstəliyindən dünyasını dəyişir. Müridləri sevimli pirlərini Amasiya yaxınlığındakı Şamlar qəbristanlığında dəfn edərək oranı müqəddəs ziyarətgaha çevirirlər.

## 5. Ailəsi

İsmayıl Şirvani hələ Azərbaycanda - Kürdəmirdə yaşayarkən ailə qurmuş və bu evlilikdən beş övladı olmuşdur: Əbdülhəmid Əfəndi, Şirvanizadə Əhməd Hülusi Əfəndi, Şirvanizadə Məhmət Rüşdi Paşa, Mustafa Nuri bəy və Hacı Şərifə Fatma xanım. Onun övladlarının da Türkiyə və millət qarşısında böyük xidmətləri olmuşdur. Bir oğlu Şirvanizadə Mehmet Rüşdi Paşa Osmanlı dövlətində yüksək dövlət vəzifələrində çalışmış, müxtəlif illərdə Şam valisi, Suriya valisi, Maliyyə Naziri, Daxiliyyə Naziri və nəhayət Osmanlı sultanı Sultan Əbdüləzizin hakimiyyəti dövründə Osmanlı dövlətinin Baş Naziri vəzifəsinə qədər yüksəlmişdir. Digər oğlu Əhməd Hülusi Əfəndi İstanbul qazısı olmuşdur. Amasiyada ilk bələdiyyə təşkilatı 1881-ci ildə yaradılanda ilk bələdiyyə başkanı da İsmayıl Şirvaninin digər oğlu Əbdürrəhim Əfəndi Şirvani olmuşdur. O qədər də geniş olmayan bilgilərə görə, onun digər oğlu Mahmud Əfəndi Azərbaycana qayıtmış və İsmayıllı rayonunun Mican kəndində yaşamışdır. Ola bilsin ki, İsmayıl Şirvaninin digər bir oğluna Mahmud adını verməsi, həm də Azərbaycan və Türkiyədə məşhur din xadimi, şair, təsəvvüf alimi Seyid Mir Həmzə Nigarinin seçkin xəlifələrindən olan Şeyx Hacı Mahmud Əfəndi Aslanbəyliyə olan hörmət və izzətinin ifadəsi olmuşdur.

Yeri gəlmişkən qeyd edək ki, Həmzə Nigarinin Qarabağ, Qazax və Borçalıdakı müridləri içərisində Hacı Mahmud əfəndi Aslanbəyli, Ağarəhim ağa Dilbazi, Şahnigar xanım Rəncur kimi tanınmış insanlar olmuşdur.[26] Hacı Mahmud Əfəndi Amasyada və Azərbaycanda çox sayılıb seçilən, dini dərindən bilən övliya kimi qəbul edilib. Hacı Mahmud Əfəndinin Qafqaz xalqlarının milli qəhrəmanı Şeyx Şamillə də çox yaxın münasibətləri olub. Ruslara qarşı mübarizədə Dağıstandakı müridizm hərəkatına və Şeyx Şamilə köməklik etdiyinə görə Hacı

[24] Seyid, R. Osmanlı baş vəzirinin atası olmuş kürdəmirli şeyx. *Kulis.az. 2013, 28 noyabr.* https://kulis.az/xeber /tarix/xeber-6837. https://kulis.az/xeber /tarix/xeber-6837.

[25] Nərimanoğlu, H. *Ruhu Qarabağda, cismi Amasyada. Mir Həmzə Seyid Nigari Qarabağinin anadan olmasinin 210, vəfatının 130 illiyi.* 525-ci qəzet, 2015, 22 avqust.

[26] Seyidov F. *Aslanbəylidən başlanan xatirələr* – Bakı, 2000, Təfəkkür NPM, s. 45

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 257-270

Mahmud əfəndi çar Rusiyası tərəfindən iki dəfə həbs edilib.[27]

Hələ Osmanlı dövlətinin baş naziri olmamışdan əvvəl-1869-cu ildə daxili işlər naziri olan Şirvanizadə Mehmet Rüşdi Paşa atasının- İsmayıl Şirvaninin qəbri üzərində türbə və məscid inşa etdirmişdir. Bu gün də tarixi dövlət abidəsi kimi qorunan türbə Amasyanın Şamlar məhəlləsində şəhərə hakim yüksəklikdəki dağın ətəyində yerləşməkdədir. Türbədə Mövlanə İsmayıl Şirvaninin, oğlu Əhməd Hülusi Əfəndinin və kürəkəni Hacı İsa Ruhi Əfəndi Şirvaninin qəbirləri vardır. Türbə kompleksinin bayır divarından asılmış metal lövhələrdə İsmayıl Şirvaninin tərcümeyi-halı və böyük islam alimi Mövlanə Xaliddən aldığı icazətnamə əks olunmuşdur. Türbə dərsanə kimi fəaliyyətini davam etdirir və tarixi abidə kimi qorunmaqdadır.

Bu ailə uzun illər ata-baba yurdundan uzaqda yaşamağa məcbur olsalar da, Azərbaycanla əlaqələrini kəsməyiblər. Bu əlaqələrin nələrdən ibarət olduğunu söyləmək çətin olsa da, tədqiqatçıların ortaya qoyduğu bir önəmli fakt da bunun bariz nümunəsi kimi təqdim edilə bilər. Hələ XIX əsrin 70-ci illərində Azərbaycan jurnalistikasının banisi Həsən bəy Zərdabi "Əkinçi" qəzetini nəşr etmək üçün mətbəə şriftləri almaq arzusu ilə İstanbula gedir. Bu önəmli arzunun həyata vəsiqə almasında ona Məhəmməd Rüşdü Paşanın yardımçı olduğu bildirilir.[28]

Şeyx İsmayıl Şirvaninin fəaliyyəti, müridizmi Azərbaycanda, Dağıstanda yayması və bu sahədəki xidmətləri haqqında, eləcə də ardıcılları olan Zərdablı Molla Əhməd, Türkiyədə yaşayan Hacı Əhməd, Qiyasi Əfəndi, Qarabağ əyalətinin Bərgüşad mahalının Cicimli kəndindən olan Mir Həmzə Seyid Nigari kimi müridləri haqqında zəngin məlumatlar var. Osmanlı dövlətinin Axısxa, Amasiya, Sivas kimi mərkəzlərində islami bilikləri tədris edən və yayan İsmayıl Şirvani böyük nüfuz sahibi kimi tanındı.

Sovet totalitar rejimi bütün varlığı dövründə dinə qarşı mübarizə apardı və bu ad altında tarixi şəxsiyyətlərə qarşı mübarizəsini dayanmadan davam etdirdi. Amma bu amansız cəhdlərə baxmayaraq xalqı etiqad yeri bildiyi dindən ayırmaq mümkün olmadı. İsmayıl Şirvani nəslinin bu günümüzdə Bakıda yaşayan nümayəndəsi Ağarəsul Məmmədov bildirir ki, ulu babası olan Şeyxin yaşadığı həyət və "Mövlanə bağı" Kürdəmirin indiki Şıxımlı kəndindədir. Sovetlər dövründə də gizlin olsa da bu kənd əhalinin etiqad və iman yeri kimi ziyarət edildi, burada yaşayan Məmmədli nəslinin nümayəndələri İsmayıl Şirvaninin bir çox əşyalarını, o cümlədən papaq və təsbehini əzizləyərək uzun illər nəsildən-nəslə ötürərək çox dəyərli əmanət kimi qoruyub saxladılar.[29]

Türkiyənin Amasiya şəhərində, Azərbaycanın Şamaxı və digər bölgələrində keçirilən elmi tədbirlər və beynəlxalq simpoziumlar bu tarixi şəxsiyyətlərin kimliyini, fəaliyyət və mübarizə yollarını tanıtmaqla onları xalqımıza da qaytarmış

[27] İmamverdiyeva, K., *Azərbaycanda sufiliyin tarixindən (epiqrafik abidələr əsasında).* T.e.f.d. Avtoreferat. Bakı, 2010.

[28] Şamil, Ə. Türk dünyasının məşhurları: İsmayıl Şirvani. https://ali-shamil.tr.gg /% 26 % 23304%3 Bsmay%26%23305%3Bl-%26%23350%3Birvani.htm

[29] Əhmədov N., Şirvanlı İsmayıl əfəndi kim idi? Şeyx Şamilin ideya rəhbəri,Osmanlı sədrəzəminin atası. *Xalq qəzeti,* 2023,12 fevral.

oldu. İndi onların fədakar həyat və mübarizələri haqqında bilgi və məlumatlar ilbəil zənginləşməkdədir. Bu sırada Türkiyəli tədqiqatçı, Amasya Universitetinin professoru Mətin Hakverdioğlunun Mövlana İsmayıl Şirvani haqqında "Gül qoxulu Mövlanə"[30] romanı Şirvani irsinə son illərin yeni bir ərmağanı kimi də qəbul edilə bilər.

## 6. Nəticə

Şeyx İsmayıl Şirvaninin fəaliyyəti, elm və ürfan işıqli bir ustad mürşid olması, onun müridizmi Azərbaycanda, Dağıstanda yayması, bu sahədə geniş fəaliyyəti və nüfuzu barədə tədqiqatlara cəlb edilmiş çoxsaylı mənbələrdə kifayət qədər zəngin məlumatlar vardır. Haqqında tədqiqatçılardan Fariz Xəlillinin, Əli Şamilin, Mehmet Rıhtımın, Arif Bəşirovun və başqalarının təqdim etdiyi məqalə və kitablarda bu barədə ətraflı faktlar yer alır. Eyni zamanda Seyid Raminin, Yaqub Paşanın şeyxin nəsillərə nümunə olan həyatı və fəaliyyəti haqqında məqalələri də geniş maraq doğurmuşdur.

İsmayıl Şirvani görkəmli publisist, naşir və ictimai xadim, uzun illər Zaqatala Rayon Partiya Komitəsinin birinci katibi, Azərbaycan Dövlət Mətbuat Komitəsinin sədri, "Kommunist" qəzetinin baş redaktoru olmuş və digər məsul vəzifələrdəki fəaliyyəti ilə yaddaşlarda xeyirxah bir insan kimi qalmış Rəşid Mahmudovun ulu babası olmuşdur. İsmayıl Şirvani nəslinin digər bir nümayəndəsi, Kürdəmir rayonunun Şıxımlı kəndində anadan olmuş Ağarəsul Məmmədov kimyaçı alimdir, coxsaylı kitabların və dəqiq elmlərə dair dərsliklərin müəllifidir. Uzun illər partiya-sovet orqanlarında rəhbər vəzifələrdə çalışmışdır. Hazırda fəxri təqaüddədir.

Amma tarixin Azərbaycan türklərinə bəxş etdiyi iki əmanəti isə Kürdəmirdən məsafəcə xeyli uzaqlarda yerləşən şəhzadələr şəhəri Amasiyada uzun illərdir ki, qorunmaqdadır. Anadolunun Yaşıl İrmaq vadisində 8500 illik tarix və mədəniyyətinə sahiblənən Amasiya İsmayıl Əfəndi türbəsini də, Şirvanlı məscidini də çoxdan müqəddəs dəyərləri sırasında əzizləyir, qoruyur. Yeni nəsillər xalqlarımızın birlik nümunəsi olan İsmayıl Şirvani və Seyid Mir Həmzə Nigari kimi şəxsiyyətlərimizi daha yaxından tanımalı, onların tarixi irslərinə sahib çıxmalıdırlar.

[30] Hakverdioğlu, M., *Gül Kokulu Mevlânâ (Şirvânî)*, Ankara: Gece Kitaplığı Yayınları, 2015, 234 s.

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 257-270

## ƏDƏBİYYAT

BƏŞİROV, A: Mövlana İsmayıl Siracəddin Şirvani Qafqaz müridizmi ideologiyasının banisidir. Qarabağdan Amasiyaya Könül Körpüsü. *I Beynəlxalq Həmzə Nigari Simpoziumunun Materialları,* Amasiya, 2012, 31 May-1 İyun. s. 33-38.

ƏHMƏDOV, N: Şirvanlı İsmayıl əfəndi kim idi? Şeyx Şamilin ideya rəhbəri,Osmanlı sədr-əzəminın atası, *Xalq qəzeti*, 2023, 12 fevral.

ƏL-BƏQARƏ, http://zikr.az/node/951. 190, 191, 192.

FADEYEV A: *Rusiya və Qafqaz XIX əsrin birinci qərinəsində*, Moskva, 1960, (Rus Dilində). s. 327.

İMAMVERDİYEVA K: *Azərbaycanda sufiliyin tarixindən (epiqrafik abidələr əsasında).,* T.e.f.d. Avtoreferat. Bakı, 2010, 45 s.

KAZIM BƏY M: *Müridizm və Şamil,* Maxaçqala, (rus dilində), 1990, c. 35-47.

KAZIM BEK M: *Möridizm i Şamil,* Russkoe slovo, KN. XII. SPB. 1859.

HAKVERDIOĞLU, M: *Gül Kokulu Mevlânâ (Şirvânî),* Ankara, 2015, Gece Kitaplığı Yayınları, 147 s.

XƏLİLLİ, F: 1854-1856-cı illərdə Şirvanda üsyana cəhd haqqında (I məqalə) // *Tarix və onun problemləri,* 2003, N 3-4.

MƏHƏMMƏDCƏLİL, M., XƏLİLLİ, F: *Mövlanə İsmayıl Siracəddin Şirvani. Həyatı, fəaliyyəti və ardıcılları,* Bakı 2003, Adiloğlu nəşriyyatı.

NƏRİMANOĞLU, H: Ruhu Qarabağda, cismi Amasyada. Mir Həmzə Seyid Nigari Qarabağinin anadan olmasinin 210, vəfatının 130 illiyi. 525-ci qəzet, 22 avqust 2015.

PAŞAYEVA, Q. Bəzmi səmadan keçməzəm... Qarabağdan Amasiyaya Könül Körpüsü, *I Beynəlxalq Həmzə Nigari simpoziumunun materialları,* Amasiya: 31 May-1 İyun, 2012, s. 11-31.

ПЕТРУШЕВСКИЙ I. P: Ислам в Иране VII-XV вв. Λ.: Издательство Ленинградского университета, 1996, с. 341-342.

POKROVSKIY M. V: O xaraktere dvijeniya qorçev Zapadnoqo Kavkaza v. 40-60-x qodax, *XIX veka- Voprosı istorii,* 1957, № 2. c.64-77.

RIHTIM, M., XƏLİLLİ, F: Güllü Mövlanə, M*iras Jurnalı,* iyun. 2012, s. 12-17.

RUNOVSKİ A: *Şamil haqqında Xatirələr*-Moskva 1989, (rus dilində), 135 s.

SEYİD, R: Osmanlı baş vəzirinin atası olmuş kürdəmirli şeyx. https://kulis.az/xeber /tarix/xeber-6837, Kulis.az.28 noyabr, 2013.

SEYİDOV F: *Aslanbəylidən Başlanan Xatirələr,* Bakı 2000, Təfəkkür NPM, 350 s.

ŞAMİL, Ə: Türk dünyasının məşhurları: İsmayıl Şirvani. https://ali-shamil.tr.gg /%26%23304%3 Bsmay%26%23305%3Bl-%26%23350%3Birvani.htm

ZELKİNA A: Qafqaz azadlıq müharibəsində Nəqşibəndiyyənin rolu haqqında. // *BEKM.* 13-14 oktyabr 1993-Maxaçqala 1997, (rus dilində).

## Extended Abstract

### Who Was Shirvani Ismail Efendi, The Scientist And Enlightener Idea Leader Of The National Hero Sheikh Shamil, Father Of The Ottoman Sedr-Azami

This article deals with the Sufism, which has existed in the history Azerbaijani people and is in the focus of attention also in our time, as well as the personalities who have benefited from it, their activities, and the historical figures that still need to be studied extensively. Ismail Shirvani was one of the prominent figures of the 19$^{th}$ century, whose life and activities were inseparably entwined with the social and political events.

Researchers investigating his heritage mentioned that Ismail Anvar oglu Shirvani was born in 1782 in the village of Kurdamir, which was part of the Bolukat district of the former Shirvan khanate. Now this village is the district center in Azerbaijan. The full name of this famous scientist is Mevlana Ismail Sirajaddin al-Kurdamiri al-Shirvani. The great Islamic scientist Mevlana Khalid, who was his teacher in Baghdad, gave him the pseudonym "Siraj al-Din", i.e. "the light of religion". "Al-Kurdamiri ash-Shirvani" used as a surname was the name of the village and region where he was born and lived.

It is noted that he received his first education – reading and writing from his father Sheikh Anvar Shirvani. Then he was sent to study at the madrasa where Muhammad Nuri Efendi worked in Shamakhi, and after graduating from the madrasa, he went to Erzinjan and learned Islam from one of the famous religious scientists of his time, Abdurrahman Efendi Evliyazadeh. After receiving a religious rank, he came to Tokat, and then to Baghdad, Burdur (Anatolia), where he increased his knowledge with famous scientists. Then he returned to Kurdamir and worked as a teacher in his hometown for 7 years. His return to Kurdamir coincided with the years of the occupation of the Caucasus by Russia. The young religious scientist witnessed the negative attitude and cruelty of the invaders towards Islam. Seeing the impossibility of fighting against them on his own, Ismail Shirvani gathered young people and teenagers around him and taught them the basics of Islam, and educated them in a fighting spirit besides science and knowledge. After living in Shirvan for seven years, he left for Hajj in 1913. He returned to Kurdamir in 1817. Kurdamir became the center of Naqshbandi sect. Ismail Shirvani developed the main ideas of Muridism during the 9 years he lived in Kurdamir, and his fame spread throughout the Caucasus soon. Even Sheikh Shamil was a supporter of the ideas of Naqshbandi.

A.R.Yermalov, the governor who was distinguished by his cruelty in the occupation of the Caucasus, instructed Madatov of Armenian origin, who was the commandant of Shirvan, to limit Ismail Shirvani's work, to take him under strict control and to arrest him. When General Yermalov's entourage explained that the arrest of Ismail Efendi would make the situation in the Caucasus even more tense, he changed his order, and although he did not arrest Ismail

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2023
MART - NİSAN
CİLT: 133 SAYI: 263
SAYFA: 257-270

Efendi, he arrested his murids (followers) and sent them into exile. However, shortly after this incident, the commandant of Shirvan advised I. Shirvani through his Shamakhi friends to leave the borders of Russia with his own will.

Madatov did not arrest Shirvani, considering the great influence of the sheikh and the request of Mustafa Khan's wife. But after that, Ismail Shirvani left his homeland and moved to Ahiska, Ottoman territory. Ismail Efendi, who came to Ahiska with the help of his murids (followers), did not stay here for long. When the Russians occupied Ahiska, he emigrated to Amasya.

Ismail Shirvani was not satisfied with promoting Naqshbandi in Amasya, he also tried to help Caucasian mujahideen by all means. Russia's special services also controlled his works constantly, sent letters to the Ottoman government and demanded to limit Ismail Efendi's work. Ismail Shirvani came to Sivas in 1832 to avoid pressure and lived there for 9 years. He returned to Amasya in 1841 and continued his work there until the end of his life. Mir Hamza Seyyed Nigari, one of the great personalities of his time, was Ismail Shirvani's murid (follower).

Ismail Shirvani got married while living in Kurdamir, Azerbaijan, and had five children from this marriage. His children also made great contributions to Turkey and the nation. One of his sons, Shirvanizadeh Mehmet Rushdi Pasha, worked in high government positions in the Ottoman State, he rose to the position of Governor of Damascus, Governor of Syria, Minister of Finance, Minister of Internal Affairs in different years, and finally Prime Minister of the Ottoman State during the reign of the Ottoman sultan Abdulaziz. Another son, Ahmet Hulusi Efendi, was the kadi (judge) of Istanbul. Abdurrahim Efendi Shirvani, another son of Ismail Shirvani, was the first mayor of Amasya when the first municipal organization was established in 1881. According to some information, his other son Mahmud Efendi returned to Azerbaijan and lived in Mijan village of Ismayilli district.

Even before he became the Prime Minister of the Ottoman State – in 1869, Shirvanizade Mehmet Rushdi Pasha built a tomb and a mosque on his father's grave. Today, the tomb, which is protected as a historical state monument, is located at the foot of the mountain overlooking the city in the Shamlar cemetery in the district of the same name of Amasya.

Ismail Shirvani was a well-known statesman, prominent publisher and public figure in Azerbaijan, great-grandfather of Rashid Mahmudov. Another representative of the Shirvani generation, Agharasul Mammadov, is a chemical scientist, the author of numerous books and textbooks on exact sciences. Agharasul Mammadov, who continues his scientific work even today, says that the yard where his great-grandfather Sheikh lived and "Movlana's Garden" are in the present-day village of Shikhimli in Kurdamir.

Studying the life and activities of Ismail Shirvani is of great importance in terms of studying the social and political situation in Azerbaijan of that time, as well as the place and influence of the religious-philosophical thinking of the 19th century. It has not been possible for a long time to study the life, he-

ritage, personality and works of Ismail Shirvani, who was one of the greatest representatives of the Sufism. As a result of the bans imposed during the Soviet era, the activity of this prominent figure was left unstudied. The article provides information about the place where he was born, his life, the events he has witnessed during his lifetime, the artefacts and his personal belongings preserved to the present day, as well as the information about his family.